DOI:10.30546/gdu.3.2024

**UOT: 75.**

# UNİVERSİTETLƏRİN İKİNCİ KURSLARINDA RƏNGKARLIQ FƏNNİNİN TƏDRİSİNDƏ MİLLİ MƏİŞƏT ƏŞYALARINDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Dosent Hüseynov Akif Əlirza oğlu***
***Gəncə Dövlət Universiteti***
***tunzalehuseyinova70@gmail.com***

**Xülasə:** *Məqalədə universitet tələbələrinin ikinci kurslarında rəngkarlıq fənninin tədrisində natürmort mövzusunda işlənən milli məişət əşyalarından istifadənin imkan və yolları haqqında geniş məlumat verilir.*

*Tələbələrə akvarel texnikasına uyğun olaraq verilən tapşırıqları, texniki predmetləri mənimsəyərək realist sənətin humanist ideyalarının ifadə etməyi izahlı şəkildə yerinə yetirməyə kömək edir.*

**Açar sözlər**: akvarel- sulu boya, natürmort-cansız əşya, lessirovka-rəng çaları

**Ключевые слова:**акварель-акварель, натюрморт-неодушевленный предмет, лессировка - оттенки цвета

**Key words**: watercolor - watercolor, still life - inanimate object, glaze-shades of color

İkinci kurslarda rəngkarlıq fənninin tədrisində milli məişət əşyalarından ibarət natürmort mövzusu üzrə dərs tapşırığını müəyyən edərkən ümumi qəbul edilmiş qayda üzrə işləmək lazımdır.

Hər natura qoyuluşu müəyyən konkret məqsəd yönümü daşıyır. “Sadədən mürəkkəbə” prinsipinin rəhbər tutularaq birinci kurslarda rəngkarlıq fənninin tədrisində milli məişət əşyalarından istifadə etmək lazımdır.

Milli məişət əşyalarından ibarət “Natürmort” mövzusu üzrə dərs tapşırığını müəyyən edərkən ümumi qəbul edilmiş didaktika prinsiplərini əldə rəhbər tutmaq lazımdır: sistemlilik, ardıcıllıq, əyanilik, təlimin başa düşülən olması.

Sistemlilik və ardıcıllıq prinsiplərinə əsaslanaraq hər dərs tapşırığını əvvəlki ilə uzlaşdırmaq lazımdır; buradan daha bir şərt ortaya çıxır: hər tapşırıq tələbələr üçün başa düşülən olmalıdır. Müəllimlər isə buna çox vaxt riayət etmir. Tələbələri maraqlandırmağa çalışaraq onlar çox vaxt tapşırığı mürəkkəbləşdirir, natürmortda artıq predmetlər çox olur. Rəngkarlıq fənninin tədrisi üzrə bədii-pedaqoji hazırlıq elmilik prinsipini ödəməli və praktika ilə bağlı olmalıdır. Buna görə də təsviri sənətin obyektiv qanunlarını öyrənən kursa müntəzəm olaraq və vaxtında əlavələr etmək lazımdır. Məsələnin qoyuluşunda müəllim “rəngin həmahəngliyi”, “tonun ağır və yüngüllüyü”, “rəng kontrastlığı” və s. anlayışları izah edir.

Düşünülmüş, yaxşı təşkil olunmuş milli məişət əşyalarından ibarət natürmort kompozisiyası (interyer daxilində, gips başın etüdü) və s. rəng və işığın obyektiv qanunauyğunluqlarını başa düşülən və əyani formada əks etdirir. Əlbəttə milli məişət əşyalarımıza uyğun olan belə natürmort gözəl mənzərə təşkil edir, müsbət emosiyalar doğurur. Tədris natürmortları vasitəsilə bədii zövqün tərbiyə edilməsi çox səmərəli keçir.

Çox vaxt deyirlər ki, müəllim natürmortu necə tərtib edirsə tələbələr də o cür çəkir. Rəngkarlıq üzrə qoyuluşlarda yersiz effektivliyə deyil, məzmunluluq, aydınlıq və sadəlik kimi ciddi tədris, tələblərin yerinə yetirilməsinə səy göstərmək lazımdır. Təsviri incəsənətin istənilən kompozisiyası kimi (o qoyuluşu da bütün elementləri bir-birilə uyğunlaşdırılmış tamlığa malik olmalı) müxtəlif yerlərdən baxdıqda öz nizamlanan gözəlliyini itirməməlidir.

Milli məişət əşyalarından ibarət natürmortun tədris və estetik cazibədarlığı rəngkarlıq sinfi üzrə təlim-tərbiyə prosesinin fəal ilkin amilidir.

DOI:10.30546/gdu.3.2024

İkinci kurslarda proqram üzrə verilmiş mövzularda sulu boya (akvarel) ilə işlənilir. Ona görə də rəssam – müəllim rəngkarlıq texnikasına yüksək səviyyədə malik olmalıdır. Ümumiyyətlə, akvarel texnikası çətindir, lakin çox cəlbedicidir. O, çox diqqətli olmağı, sürətlə işləməyi tələb edir. Rəssamın temperamenti burada yağlı boyakarlıqda olduğundan daha aydın və asan əks olunur.





Akvarel rəngkarlığı texnikasının mənimsənilməsi məktəbdə işləmək üçün xüsusilə vacibdir – istər pedaqoji praktika kursları keçirilən dövrdə, istərsə də təsviri incəsənət müəllimlərinin müstəqil işləməsi zamanı.

Akvarel texnikası rəhngkarlığı həm uzunmüddətli çox seanslı qoyuluşlar, həm də qısamüddətli etüdlər zamanı imkan verir. İlk tapşırıqlardan başlayaraq texniki predmetləri mənimsəmək üzrə keçirilən məşğələlər ətraf gerçəkliyi əks etdirən realist sənətin humanist ideyalarını ifadə etməyin üsul və vasitəsidir. Akvarel rəngkarlığına yiyələnərkən naturanın realist təsvir qanunlarının öyrənilməsinə, işdə düzgün metodik ardıcıllığın olmasına böyük diqqət yetirilir ki, tələbələr zəruri biliklər və professional savad ala bilsinlər. Müəllim təkcə tapşırığın şərtlərini izah etməyi bacarmalı deyil, həm də şəxsi nümunəsi ilə natürmortu necə çəkmək mümkün olduğunu göstərməlidir. Bu ondan akvarel texnikasının əsaslarına professional cəhətdən savadlı yiyələnməyi tələb edir. Rəsm çəkməyin texniki priyomlarının naturada əksinin böyük əhəmiyyəti var və o, etüddə emosional təəssürat yaradılmasına ciddi təsir edir. Müəllim tələbələri fırça ilə işin əsas texniki priyomları ilə tanış etməlidir. Onlara bu çalardan tədricən başqasına keçmək bacarığı – lessirovka yolu ilə rənglərin alınması, "yaş-yaş" işləmək öyrədilməlidir.

DOI:10.30546/gdu.3.2024




Fırça ilə iş texnikası yeksənək və cəsarətsizdirsə təsvir rəngkarlıq keyfiyyətini itirər, “əzilmiş” və “darıxdırıcı” alınar. İş cəsarətli yaxımlarla, boyası çox fırça ilə götürüldükdə tonlar şəffaf, dərin və saf alınar. Rəssam müxtəlif ifadə vasitələri tətbiq edərək, etüdün mənzərəli həllini əldə edilir. Akvarel rəngkarlığının mühüm keyfiyyətlərində biri onun şəffaflığı, kağızın ağ rəngini əks etdirmək bacarığıdır; bu boyalara təzəlik və rəng dərinliyi verir.

Kağız boya qatlarından keçmiş işığı əks etdirir. Ona görə də rəngkarlıqda kağız rəngin əsas optik ağardıcısıdır, akvarelin palitrasında ağ rəng olmur.

Çox vaxt rəngləri bir-birinin üstündə nazik qatlarla yaxılma üsulu ilə qatışdırırlar. Bu üsulla bu və ya başqa rəngi təkrar yaxmaqla rəngi gücləndirmək olar, lakin onu daha işıqlı etmək olmaz, çünki hər yeni çəkilmiş qat rəngi əvvəlkindən tutqun edir. Rənglərin mexaniki qatışdırılmasında olduğu kimi rənglərin bir-birinin üzərinə yaxılma texnikasında da iki-üç boya ilə kifayətlənmək lazımdır ki, rəng tonu “çirklənməsin”.

Rənglər bir-birinin üzərinə yaxılmaqla qatışdırıldıqda hər əvvəlki qatın üstü qismən açılır. Bu zaman rənglər tam qatışmır. Nəticədə, rənglərin bəziləri birgə, bəziləri isə ayrı-ayrılıqda işləyir.

Rənglərin optik qatışması ləkə və ya yaxımlar canlılığı, şəffaflığı və rəng çalarlarının oynaqlığı ilə fərqlənən ümumi mürəkkəb rəng şəklində birləşir. Akvarel rəngkarlığının texnikası istər öz priyomları, istərsə də rənglərdən istifadə üsullarına görə mürəkkəb və rəngarəngdir. Akvarel üçün xarakterik olan lessirovka priyomuna baxaq.

Lessirovka akvarel rəngkarlığının ən çox yayılmış priyomlarındandır. Əvvəlki qatı açmadan ardıcıl olaraq bir rəng qatını digərinin üzərinə yaxmaqdan ibarətdir. Rəng qatları işıqlanaraq rənglərin optik qatışmasını yaradır və nəticədə yeni rəng tonu əmələ gəlir. Lessirovka texnikasında şəffaf, narın əzilmiş boyalardan istifadə edilir ki, rəssam dəfələrlə bir qatın üzərinə başqasını çəkə bilsin və eyni zamanda ən dərindəki qatın da görünə bilməsini təmin etsin. Lessirovka texnikasının bu keyfiyyəti tərkibcə, zənginliyinə və parlaqlığına görə dolğun rəng almağa imkan verir. Lessirovkadan çox ehtiyyatla istifadə etmək lazımdır: rəngləri zəif məhlul şəklində çəkmək, yəni fırçanı səy ilə yaxşı islatmaq və fırça ilə əvvəlki qata toxunmamaq lazımdır. İşi lokal rəngin çəkilməsindən başlamaq olar. Bunun üçün natura ilə onun təsviri arasında rəng oxşarlığını təyin etmək üçün lazım olacaq rəngləri əvvəlcədən

DOI:10.30546/gdu.3.2024

palitra üzərində müəyyənləşdirmək lazımdır. Predmetləri hələ bütün həcmdə göstərmədən yarımtonları və kölgələri, koloriti çəkirlər. Kölgəli tərəfləri tədricən gücləndirərkən onların rənglərini hədsiz artıq etməmək, açıq yerləri isə çalışıb tutqunlaşdırmamaq lazımdır, çünki boyanın tez-tez silinməsi rəngin parlaqlığının itməsinə gətirib çıxarır. İşin ilk mərhələlərində detalları çəkib qurtarmırlar, ən başlıcası-böyük formanı aşkar etməkdir. İşin ilk mərhələsini bitirdikdən sonra onun ümumi vəziyyətini tənqidi qiymətləndirmək lazımdır. Məsələn, birinci, ikinci və üçüncü planların necə göründüyünü yoxlayın. Əgər arxa plandakı predmet öz tonuna görə (çox işıqlı və ya çox tutqundursa) qabağa çıxarsa zəruri düzəlişlər etmək lazımdır. bundan sonra formanın detallaşdırılmasına keçmək olar. daha mühüm premetlər az mühümlərə nisbətən daha müfəssəl çəkilməlidir. Arxa planda olan predmetlər bir çox hallarda ümumiləşmiş şəkildə qala bilər. Detallar üzərində işi bitirdikdən sonra işi yekunlaşdırmağa hissələr və tam arasında daha güclü vəhdət yaratmağa keçmək lazımdır.

Natürmort üzərində işin yekun mərhələsi yaradıcılıq prosesinin mühüm və məsul mərhələsidir. İlkin mərhələlərdə parlaq, işıqlı və dolğun rənglərdən istifadə edildiyi halda, yekun mərhələdə daha çox sakit tonlar tətbiq edilirsə, əksinə müəyyən rəng "çirklənməsi" olduqda işi canlandıran rənglər daxil etmək lazımdır.

Hər kağıza, yaxud hələ tam qurumamış rəngin üzərinə daha tutqun, yaxud daha açıq rəngi elə çəkirlər ki, yeni vurulan rəng bir az yayıla bilsin.

Bu üsulla işıqlı ləkələrin suda əks olunmasını, ipək parçanın incə qırışlarını yaxşı ifadə etmək olar.

Bu metod eskizlərin, sürətlə çəkilmiş eskiz layihələrin və etüdlərin hazırlanmasında istifadə edilir ki, naturadakı güclü ton və rəng nisbətlərini vermək mümkün olsun. "Yaş-yaş" işləmə metodu ilə bir rəngin tədricən başqasına keçməsini, yaxud bir rəngin növbənöv çalarlarını almaq mümkündür.

"Yaş-yaş" işləməyin çox üsulları mövcuddur. Məsələn, orta işıq tonu tapılır və onunla müstəvinin, yaxud predmetin bir hissəsi örtülür. Rəng tam qurumamış başqa rəng çaları seçilir, bir hissəsi əvvəlki rəngin üzərinə düşməklə onunla yanaşı çəkilir. Bir rəng digəri ilə qarışaraq rənglərin tədrici keçidini yaradır. Bu yolla kiçik sahədə rəngləri bir-birinə qatışdırmaq və bu zaman bəzi yerlərdə əvvəlki tonları saxlamaq olar. Bir rəngi başqası ilə tamam örtmək də olar. "Yaş-yaş" işləyərkən açıq tonları tutqun olanlarla açıq tonlar da daxil etmək olar. Səthi sərhədləri olmayan müxtəlif tonlarla örtmək üçün əvvəlcə həmin səthi təmiz su ilə islatmaq, sonra nəm kağız üzərində tələb olunan rəngləri almaq olar. Nəm kağız ayrı-ayrı nöqtələr arasında sərhədi azaldır.

DOI:10.30546/gdu.3.2024



Rəngkarlıq üzrə bədii-pedaqoji hazırlıq elmilik prinsipini ödəməli və praktika ilə bağlı olmalıdır. Buna görə də təsviri sənətin obyektiv qanunlarını öyrənən kursa müntəzəm olaraq və vaxtında əlavələr etmək lazımdır. Məsələnin qoyuluşunda müəllim "rəngin həmahəngliyi", "tonun ağır və yüngüllüyü", "rəng kontrastlığı" və s. anlayışları izah edir.

Əgər müəllim bu və ya digər bilikləri tələbəyə çatdırsa əlbətdə tədris prosesində hər hansı bir yenilik ola bilər.

Məqsədimiz universitetlərin ikinci kurslarında milli məişət əşyalarından ibarət natürmortun rənglə işlənməsi yollarının tələbələrə öyrətməkdən ibarətdir.

Tədris işinin təhlili belə bir nəticəyə gəlməyimizə imkan verir ki, tələbələrin rənglə (akvarel ilə) işlənməsi qaydalarının bilmələri tədris işinin keyfiyyətini yüksəltməyə kömək edə bilər.

***Ədəbiyyat***


1. Павло Комесанья. Рисуем акварелью. Харков – 2012
2. Бесчатсов Николай Петрович «Светная графика» Учебн. Пособие для студентов вузов. Москва. Гуманитар изд. Центр ВЛАДОС 2014. 176 стр.
3. Билл Мартин «Правила рисования» Минск. Попурин. 2014. 144 стр.
4. Бесчаснов Н.П. и др. Живопись уч.пособ. для студентов вузов Москва, Владос. 2002.
5. Винер А.Б. Материалы живописи (акварель, гуашь, масло) М. Искусство, 2014.
6. Полное руководство по рисованию. Москва-2011. Давид Санмигель.
7. Павло Комесанья. Рисуем акварелью. Харков – 2012
8. Полный курс акварели.
9. "Ali məktəblərdə natürmort tapşırıqlarının sulu boya (akvarel) ilə işlənməsi texnikası" (Metodik vəsait) Bakı. 2013

DOI:10.30546/gdu.3.2024

## ВОЗМОЖНОСТИ И СПОСОБЫ ИСПОЛЬЗОВАНИЯ ПРЕДМЕТОВ НАЦИОНАЛЬНОГО БЫТА ПРИ ПРЕПОДАВАНИИ ЖИВОПИСИ НА ВТОРОМ КУРСЕ ВУЗОВ

***Гусейнов Акиф Алирза оглы***

***Резюме***

В статье представлена обширная информация о возможностях и способах использования предметов национального быта, используемых по предмету «Натюрморт», при обучении живописи на втором курсе студентов вуза.

Он помогает учащимся интерпретировать гуманистические идеи реалистического искусства, осваивая задания по технике акварели, осваивая технические предметы.

## POSSIBILITIES AND WAYS OF USING OBJECTS OF NATIONAL LIFE WHEN TEACHING PAINTING IN THE SECOND YEAR OF UNIVERSITIES

***Huseynov Akif Alirza***

***Summary***

The article provides extensive information about the possibilities and ways of using national household items used in the subject “Still Life” when teaching painting to second-year university students.

He helps students interpret the humanistic ideas of realistic art, mastering tasks in watercolor techniques, and mastering technical subjects.

***Rəyçi., Əməkdar rəssam, prof. Şaiq Məmmədov***
***İncəsənət kafedrasının 25 sentyabr 2024-cü il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 07 oktyabr 2024-cü il***